**“Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında” 2005-ci il noyabrın 25-də Moskva şəhərində imzalanmış Saziş Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 may 2006-cı il
№ 114-IIIQ

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında**

**S AZ İ Ş**

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər (bundan sonra "Tərəflər" adlanacaq), Hökumətlərinin şəxsində insan, insan orqanları və toxumaları alverinin, xüsusən də onun mütəşəkkil formalarda inkişafı miqyaslarından və tendensiyalarından narahatlıq keçirərək,**
**insanın, hər şeydən öncə qadın və uşaqların həyat və sağlamlığına, hüquq və azadlıqlarına, şərəf və ləyaqətinə, cəmiyyətin və dövlətin maraqlarına qəsd etmə hallarından etibarlı müdafiəni təmin etmək, habelə bu cür hallara qarşı səmərəli mübarizə üsullarının yaradılması təşəbbüsündən çıxış edərək, Birləşmiş Millətlər Təşkilatının transmilli mütəşəkkil cinayətkarlığa qarşı 2000-ci il 15 noyabr tarixli Konvensiyasının və onun insan, xüsusən də qadın və uşaq alverinin qarşısının alınması və tamamilə aradan qaldırılması və buna görə cəzalandırma barədə 2000-ci il 15 noyabr tarixli Protokolunun və mühacirlərin quru, dəniz və hava yolu vasitəsilə gətirilməsinə qarşı mübarizəyə dair 2000-ci il 15 noyabr tarixli tamamlayıcı Protokollarının müddəalarını nəzərə alaraq,**
**beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarını rəhbər tutaraq, aşağıdakılar barədə razılığa gəldilər:**

**Maddə 1**
**İstifadə olunan terminlər**

**Bu Sazişin məqsədləri üçün aşağıdakı terminlərdən istifadə olunur:**
**İnsan alveri - istismar, cəlbetmə, daşıma, təhvil vermə, cinayəti ört-basdır etmə məqsədilə həyata keçirilən, yaxud da insanların hədə-qorxu və güc tətbiq etmək, yaxud da vadar etmənin, oğurlamanın, dələduzluğun, aldatmanın, hakimiyyətdən, yaxud da vəziyyətin zəifliyindən sui-istifadə etmənin müxtəlif formalarının tətbiqi, yaxud da digər nəzarətedici şəxsin razılığının alınması məqsədilə ödəmələr və qazanclar şəklində rüşvətlə ələ keçirilməsi yolu ilə alınması. İstismara, minimum olaraq, digər şəxslərin fahişəliyinin istismarı, yaxud da cinsi istismarın digər formaları, icbari əmək, yaxud xidmətlər, köləlik, yaxud da köləliyə bənzər adətlər, asılı vəziyyət və ya insan orqanlarının və toxumalarının satılmaq məqsədilə müalicə olunması:**
**uşaqlar - on səkkiz yaşına çatmamış şəxslər;**
**orqan - orqanizmin ümumi funksiya, struktur təşkil olunma və inkişafla birləşərək təkamül prosesində yaranan toxumalar kompleksindən ibarət bir hissəsi;**
**toxuma - ümumi funksiya, quruluş və (və ya) mənşə ilə birləşən hüceyrələr və qeyri-hüceyrə strukturları sistemi.**

## Maddə 2
## Ümumi müddəalar

1. Bu Sazişin məqsədləri aşağıdakılardır:

insan alverinə qarşı mübarizə, onun yaranmasına şərait yaradan səbəb və şəraitlərin aradan qaldırılması, habelə insan alveri qurbanlarının müdafiəsi və onların reabilitasiyası sahəsində hüquqi, sosial-iqtisadi, informasiya və digər xarakterli birgə kompleks tədbirlərin görülməsi və razılaşdırılmış strategiyanın hazırlanması;

insan, xüsusən də qadın və uşaq alverinə qarşı mübarizə sahəsində maksimum dərəcədə səmərəli nəticələrə nail olunması məqsədilə bütün dövlət orqanlarının, ictimai və digər təşkilatların səylərinin birləşdirilməsi.

2. Tərəflər bu Sazişə müvafiq olaraq, öz qanunvericiliklərinə və iştirakçısı olduqları beynəlxalq müqavilələrə əməl olunduğu zaman, insan, xüsusən də qadın və uşaq alveri ilə bağlı cinayətlərin qarşısının alınması, aşkar edilməsi, aradan qaldırılması və üstünün açılması, habelə insan alveri qurbanlarının müdafiəsi və onların reabilitasiyası sahəsində öz səlahiyyətli orqanları vasitəsilə əməkdaşlığı həyata keçirirlər.

3. Saziş üzrə Tərəflər səlahiyyətli orqanların siyahısını ayrı-ayrılıqda müəyyən edirlər və həmin siyahı Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə bildirişin verildiyi zaman depozitariyə təqdim olunur. Tərəflərin hər biri səlahiyyətli orqanların siyahısında dəyişikliklər barədə depozitariyə bir ay ərzində yazılı məlumat verir.

4. Tərəflərin səlahiyyətli orqanlarının ərazi bölmələri bu Sazişin müddəalarının yerinə yetirilməsi məqsədilə Tərəflərin səlahiyyətli orqanlarının müəyyən etdiyi qaydada birbaşa işgüzar əlaqələr yarada bilər.

## Maddə 3
## Əməkdaşlığın əsas istiqamətləri

Tərəflər aşağıdakı əsas istiqamətlərdə əməkdaşlıq edirlər:

Tərəflərin insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığının normativ hüquqi bazasının təkmilləşdirilməsi, bu sahədə milli qanunvericiliyin uyğunlaşdırılması;

BMT konvensiyalarının, Tərəflərin iştirakçı olduğu beynəlxalq müqavilələrin müddəalarının yerinə yetirilməsi məqsədilə insan alverinə qarşı mübarizəyə yönəlmiş razılaşdırılmış tədbirlərin həyata keçirilməsi;

insan alveri ilə bağlı cinayətkarlığın vəziyyətinin və dinamikasının, habelə ona qarşı mübarizənin nəticələrinin təhlili;

insan, xüsusən də qadın və uşaq alverinin qarşısını almaq məqsədilə hüquq mühafizə, sərhəd və miqrasiya nəzarəti, sosial təminat, səhiyyə və təhsil orqanlarının, qeyri-hökumət və digər təşkilatların qarşılıqlı əlaqə mexanizmlərinin təkmilləşdirilməsi;

transmilli cinayətkar qruplar, onların rəhbərləri, insan alveri ilə əlbir olan hüquqi və fiziki şəxslər, habelə itkin düşmüş şəxslər, insan alverinin qurbanı olduğu ehtimal edilən şəxslər barədə birgə məlumat bankının yaradılması;

cinayətkar fəaliyyətə cəlb oluna bilən, yaxud da insan alverində əlbir ola bilən hüquqi və ya fiziki şəxslərin fəaliyyətinə nəzarətin təmin edilməsi;

insan, xüsusən də qadın və uşaq alveri qurbanlarının effektiv müdafiəsinin təmin edilməsinə və onların reabilitasiyasına dair tədbirlərin görülməsi.

## Maddə 4
## Əməkdaşlığın əsas formaları

1. Tərəflər əsasən aşağıdakı formalarda əməkdaşlıq edirlər:

operativ, kriminalistik, statistik və digər məlumatların, o cümlədən planlaşdırılan və törədilən cinayətlər, bu cür hərəkətlərdən əldə olunan gəlirlər və onların iştirakçısı olan fiziki, yaxud hüquqi şəxslər barədə məlumatların mübadiləsi;

əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair sorğuların icra olunması;

koordinasiya olunmuş əməliyyat-axtarış və profilaktik tədbirlərin planlaşdırılması və həyata keçirilməsi;

normativ hüquqi aktların, nəşrlərin və elmi-metodiki materialların mübadiləsi;

təcrübə mübadiləsi, işçi görüşlərin, məsləhətləşmələrin, müşavirələrin,

praktik konfrans və seminarların, habelə birgə elmi araşdırmaların keçirilməsi;

internet şəbəkəsindən insan alveri məqsədilə istifadə olunmasının qarşısının alınması və aradan qaldırılması üzrə uzlaşdırılmış tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi;

biometrik məlumatlardan istifadə də daxil olmaqla, pasport-viza nəzarətində informasiya sistemlərinin tətbiqi təcrübəsinin mübadiləsi;

kadrların hazırlanması və mütəxəssislərin ixtisasının artırılması sahəsində yardım göstərilməsi;

insan, xüsusən də qadın və uşaq alveri qurbanlarının sosial və tibbi reabilitasiyasının yeni üsullarının işlənib hazırlanması və tətbiq edilməsi.

2. Bu Saziş cinayət işləri və ekstradisiya üzrə hüquqi yardım göstərilməsi məsələlərinə toxunmur.

## Maddə 5
## Yardım barədə sorğu

1. Tərəflərin səlahiyyətli orqanlarının əməkdaşlığı onların yardım barədə sorğularının (bundan sonra - sorğu) icrası vasitəsilə həyata keçirilir.

Məlumat onun digər tərəf üçün maraq doğuracağını güman etmək üçün əsaslar olduğu təqdirdə həmin Tərəfə sorğusuz təqdim oluna bilər.

2. Sorğu yazılı şəkildə göndərilir. Sorğu daha sonra təxirəsalınmaz hallarda üç gündən gec olmayaraq hökmən yazılı şəkildə təsdiq olunmaqla, şifahi də təqdim oluna bilər. Bu zaman mətnin ötürülməsinin texniki vasitələrindən istifadə oluna bilər. Sorğunun doğruluğuna və ya məzmununa şübhə yarandığı hallarda onun əlavə təsdiqi tələb oluna bilər.

3. Sorğuda aşağıdakılar göstərilir:

a) sorğu verən və sorğu edilən Tərəflərin səlahiyyətli orqanlarının adları;

b) sorğunun göndərildiyi materialın qısa məzmunu;

c) sorğunun məqsədinin göstərilməsi və əsaslandırılması;

ç) zərurət olduqda, sorğunun icrası zamanı xüsusi qaydanın təsviri və həmin zərurətin əsaslandırılması;

d) sorğunun icrasının gözlənilən müddəti;

e) sorğunun icrası üçün faydalı ola biləcək digər məlumatlar.

Sorğu verilən Tərəfin səlahiyyətli orqanı sorğunun lazımınca icrası üçün zəruri olan əlavə məlumatlar tələb etmək hüququna malikdir.

4. Yazılı şəkildə göndərilən və ya təsdiq edilən sorğu onu verən Tərəfin səlahiyyətli orqanının rəsmi blankında rəhbər, yaxud da onu əvəz edən şəxs tərəfindən imzalanmaqla həmin orqanın gerbli möhürü ilə təsdiqlənməlidir.

5. Əgər sorğu verən Tərəfin səlahiyyətli orqanı sorğunun icrasının vacibliyinin təxirə salındığını müəyyən edərsə, onda həmin orqan sorğu verilən Tərəfin səlahiyyətli orqanını bu barədə dərhal xəbərdar etməlidir.

**Maddə 6**
**Məlumatın məxfiliyi**

1. Tərəflərdən hər birinin səlahiyyətli orqanı digər Tərəfin səlahiyyətli orqanından aldığı məlumatların, habelə alınma faktının və sorğunun məzmununun məxfiliyini sorğu verən Tərəfin səlahiyyətli orqanının onların məzmununun açıqlanmasını arzuolunmaz hesab etdiyi hallarda təmin edir.

2. Sorğunun icrası zamanı məxfiliyə əməl edilməsinin qeyri-mümkün olduğu hallarda sorğu edilən Tərəfin səlahiyyətli orqanı bu cür şəraitlərdə sorğunun icra edilməsi mümkünlüyü barədə qərar qəbul edilməsi məqsədilə bu barədə sorğu edən Tərəfin səlahiyyətli orqanına məlumat verir.

**Maddə 7**
**Sorğunun icra olunması**

1. Sorğu edilən Tərəfin səlahiyyətli orqanı sorğunun sorğu verən Tərəfin səlahiyyətli orqanı tərəfindən göstərilən müddətlərdə tam və keyfiyyətlə icrasını təmin etmək üçün bütün zəruri tədbirləri görür.

2. Sorğu edən Tərəfin səlahiyyətli orqanı sorğunun icrasına əngəl törədən, yaxud da onu əhəmiyyətli dərəcədə ləngidən şəraitlər barədə təxirə salınmadan xəbərdar olunmalıdır.

3. Əgər yardım barədə sorğunun icrası sorğunu qəbul edən orqanın səlahiyyətlərinə

daxil deyilsə, onda həmin orqan onu dərhal sorğu e